

Azərbaycan Milli Cəbhəsinin irandakı 10-cu prezident seçkiləri haqqında müraciəti!

**Əziz Vətəndaşlar!**

Seçki vəzifə dəyil, haqqdır!

Demokrasinin çiçəklənməsi hər bir hakimiyyətin insan huquqlarına səmimi hörmətlə yanaşmağından ortaya çıxır. Vətəndaş huquqlarına gəldikdə, demokratik huquqlarına əsaslanarkən, xalq, hakimiyyətə xidmət etmək üçün deyil, bəlkədə hökümət xalqa xidmət etmək üçündür. Bələliklə xalq demokratik dövlətin təbəəsi yox, ancaq vətəndaşı sayılır və oracan ki, dövlətlər millətlərin huquqların təmin edir. Vətəndaşlar, dövlətə sədaqətlə yanaşır, amma istibdad hakimiyyətlər qarşısında, millətlərin boynuna belə bir vəzifə düşməyir. Elə buna görədə seçkilərdə iştirak etmək vəzifə dəyil, bəlkə haqqdır və bu haqq bir demokratik hakimiyyətdə əda olarkı, vətəndaş! Bütün insanı və milli huquqlarına malık olsun.

31 ildir ki, İslam hakimıyyətinin apartaid siyasəti Azərbaycan türkünü öz milli varlığından uzaqlaşdıraraq, dözülməz vəziyyətdə yaşamağa məhkum edmişdir. Yüzlərlə acı hadisəni bir daha xatırlamağa gərək yoxdur. Ancaq, 2006-ci il may ayının 22 sində 35 şəhər və şəhərcikdə xalqımızın haqq səsləri qanla boğuldi. Hələ də Azərbaycanın milli və mədəni fəallarına divan tutulur.

Nəhayət, Anayasanın qanunlarini icra etmək məqsəd ilə "Azərbaycan naminə" ilk dəfə olaraq ,2009-ci il mart ayının 10 da Təbrizdən cumhur başqanlığına soydaşımiz Əkbər Ələminin namzədliyi irəli sürüldü. Mövcud rejimin Əkbər Ələmi cənablarına səlahiyyət verilməməsi təsadüfı hal deyil. Məhz İslam adı daşıyan rejimin apartaid siyasətinin dəvam etməsi aydın görünür.

**Əziz Vətəndaşlar!**

Prezident seçgilərinin 10-cu ərəfəsindəyik. Bütün faktları nəzərə alaraq, Milli varlığından məhrum olan azərbaycanlılar daha bu gün ana yasasının müəyyən maddələrini həyata keçirmək arzusunda deyil. Onların hakimiyyətlərə etimadsizlığı, öz-özlərinin müqəddəratını əldə etmək fikri, ciddi şəkildə gündəlik məsələyə çevrilməsinə səbəb olmuşdur.

AMC, əziz vətəndaşlarımızı və qayğıkeş bacı və qardaşlarımızı, milli etiraz olaraq, prezident seçkilərinə qatilmamağa çağırır. Inanırıq ki, bu mədəni mübarizəmiz nəticəsində milli huquqlarımızı əldə etməyi layiqincə bacaracayıq!

Azərbaycan Milli cəbhəsi (AMC)

2009.06.06

Malmö- İsveç